Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
Təhsilin İnkişafı Fondu

maarifçi

# “MAARİFÇİ” Tələbə-Məzun Təcrübə Proqramı

# Ən çox verilən suallar və cavabları

**“Maarifçi” tələbə-məzun təcrübə proqramı ilə bağlı**

**ən çox verilən suallar və cavabları**

**Sual: “Maarifçi” tələbə-məzun təcrübə proqramına qeydiyyat necə həyata keçirilir?**

**Cavab:** Qeydiyyat Google Form qeydiyyat linki vasitəsilə həyata keçirilir. Namizədlər müraciət edərkən formda tələb olunan müvafiq məlumatları yazaraq qeydiyyatdan keçə bilərlər. Qeydiyyat üçün keçid: https://forms.gle/Eyr1rkNGaqXazsih6

**Sual: “Maarifçi” tələbə-məzun təcrübə proqramına qeydiyyat üçün son müraciət tarixi nə zamandır?**

**Cavab:** Namizədlər 15 dekabr 2023-cü tarixinədək qeydiyyatdan keçə bilərlər.

**Sual: “Maarifçi” tələbə-məzun təcrübə proqramına kimlər müraciət edə bilər?**

**Cavab:** Ali təhsilin bakalavriat səviyyəsi üzrə müvafiq ixtisaslarda təhsil alan III və IV kurs tələbələri, magistratura səviyyəsində təhsil alan tələbələr, eləcə də son 3 il ərzində məzun olmuş yaşı 29-dan aşağı olan şəxslər müraciət edə bilərlər.

**Sual: “Maarifçi” tələbə-məzun təcrübə proqramı nə zaman başlayacaq?**

**Cavab:** Təcrübə proqramının 2024-cü ilin əvvəlində başlanması planlaşdırılır.

**Sual: “Maarifçi” tələbə-məzun təcrübə proqramının yazılı imtahan mərhələsində hansı başlıqlar altında suallar olacaq?**

**Cavab:** İmtahan prosesindən öncə çərçivə sənədi (mövzular) müəyyən olunacaq və imtahan iştirakçılarına bu haqda məlumat veriləcək.

**Sual: Təcrübə proqramının yazılı imtahan və müsahibə mərhələsindən uğur qazanmış namizədlərin iş saatları necə olacaq?**

**Cavab:** III və IV kurs tələbələri tədris müddətində yarım iş günü, məzunlar isə tam iş günü təcrübə prosesinə qoşulacaqlar. Tam iş günü saat 10:00-dan 17:00-a qədər 6 saat olmaqla, yarım iş günü isə 09:00-dan 13:00-dək və ya 14:00-dan 18:00-dək 4 saat olmaqla müəyyən edilir. Tədris müddətini əhatə etməyən dövrlərdə yay aylarında təcrübəçilər tam iş günü prosesə qoşula bilərlər.

**Sual: Proqram iştirakçılarına xərclərin qarşılanması məqsədilə hər hansı bir ödəniş veriləcək?**

**Cavab:** Proqram iştirakçılarına gündəlik yol və qida xərclərinin qarşılanması məqsədilə aylıq qonorar verilməsi nəzərdə tutulur.

**Sual: "Maarifçi" tələbə-məzun təcrübə proqramına hansı ixtisaslar üzrə təhsil alanlar müraciət edə bilər?**

**Cavab:** Bütün ixtisaslardan olan tələbə və məzunlar müraciət edə bilər. Lakin müraciət etdiyi sahəyə uyğun ixtisas təhsilinin olması arzuolunandır.

**Sual: Təcrübə proqramının müddəti neçə aydır?**

**Cavab:** Proqram tələbələr və məzunlar üçün ildə 2 dəfə olmaqla 3 ay müddətinə həyata keçiriləcək.

**Sual: Tələbə və ya məzunun ümumi orta müvəffəqiyyət göstəricisinin hər hansı bir önəmi var?**

**Cavab:** Ümumi orta müvəffəqiyyət göstəricisi 71 (4 ballıq sistemdə 1.7 və yuxarı) və yuxarı olmalıdır.

**Sual: Üzrlü hal olduğu təqdirdə təcrübəçi təcrübə ilə bağlı məsul şəxsi məlumatlandıraraq təcrübəyə gəlməyə bilər?**

**Cavab:** Proqram müddətində təcrübəçi öncədən təcrübəçilər üzrə məsul şəxsi məlumatlandırmaqla hər ay 3 dəfə, ümumilikdə isə 6 dəfəyədək davamiyyət icazəsindən istifadə edə bilər.

**Sual: "Maarifçi" tələbə-məzun təcrübə proqramında bir dəfə uğur qazanmış və təcrübədə iştirak etmiş namizəd yenidən təcrübə proqramına müraciət edə bilər?**

**Cavab:** Təcrübə proqramında iştirak edən şəxsin ikinci dəfə iştirakı nəzərdə tutulmamışdır. Xüsusi hallarda təcrübəçinin arzusu və təcrübə keçdiyi bölmənin rəhbərinin istəyi ilə təcrübə müddəti bir ay uzadıla bilər.

**Sual: Hansı hallarda təcrübəçi ilə bağlanmış müqaviləyə xitam verilə bilər?**

**Cavab:**

- Müqaviləyə tərəflərdən birinin təşəbbüsü ilə, 3 gün əvvəlcədən məlumat verilməklə, xitam verilə bilər;
- Vətəndaşlarla iş sahəsində fəaliyyət göstərən təcrübəçi ilə bağlı vətəndaş tərəfindən şikayət daxil olduğu təqdirdə, şikayətə Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının Qanununa əsasən baxılır. Şikayət əsaslı olduğu təqdirdə təcrübəçi ilə bağlanmış müqaviləyə xitam verilə bilər;
- Təcrübəçinin fəaliyyəti ilə bağlı ETN və ya tabe qurumların əməkdaşı tərəfindən şikayət daxil olduğu təqdirdə şikayət Nazirliyin İnsan resursları şöbəsinin əməkdaşları tərəfindən araşdırılır. Şikayət əsaslı olduğu təqdirdə təcrübəçi ilə bağlanmış müqaviləyə xitam verilə bilər;
- Təcrübəçi davamiyyət qaydalarına riayət etmədiyi halda Təcrübəçi fəaliyyəti haqqında müqavilədə nəzərdə tutulduğu qaydada müqaviləyə xitam verilə bilər.

**Sual: "Maarifçi" tələbə-məzun təcrübə proqramını tamamlamış namizədə təcrübədə iştirakını təsdiq edən sənəd veriləcək?**

**Cavab:** Təcrübə müddətini başa vuran iştirakçılara proqramın sonunda iştiraklarını təsdiqləyən sertifikat təqdim olunur.

**Sual: 4-cü kurs tələbələri istehsalat təcrübəsini (praktika) "Maarifçi" tələbə-məzun təcrübə proqramı çərçivəsində keçirə bilərlər?**

**Cavab:** Seçim prosesində uğur qazanan IV kurs tələbələri istehsalat təcrübəsini "Maarifçi" tələbə-məzun təcrübə proqramında keçirə bilərlər. Uğur qazanan iştirakçılar proqram tərəfindən ali təhsil müəssisəsinə təqdim etmək üçün bütün lazımi sənədlərlə təmin olunacaqlar.